**Bisavad TEYMUR**

## Gəlin

**Sübhi - səhər niyə məlul durursan,**
**Edirsən nə fikir, nə xəyal, gəlin?**
**Mənim kimi eşqin günahkarısan,**
**Salmısan ortaya qeyli-qal, gəlin.**

**Gəl inanma sən əğyarın sözünə,**
**Tənha vurar seyraqubun gözünə.**
**Ağlayıb gözyaşın tökmə üzünə,**
**Ləkə tutar ağ üzündə xal, gəlin.**

**Bisavad dərdindən olub şikəstə,**
**Bülbül kimi ün eylərəm qəfəsdə.**
**Dərdini çəkməkdən düşmüşəm xəstə,**
**İnsaf elə gəl könlümü al, gəlin.**

## Ay maral-maral

Tanrı səni nə xoş gündə yaradıb,
Gəzirsən dağları, ay maral-maral.
Kərəm kimi həsrətindən ölürəm,
Çeşmim intizarı, ay maral-maral.

Yanıram dərdindən, dərdimə inan,
Sən də mənim kimi od tut, alovlan.
Eylərəm canımı yolunda qurban,
Gəlsən bizə sarı, ay maral-maral.

Anlamasan mətləbimi yazıynan,
Di gəl danış Bisavadın özüynən.
Müxənnətin, seyraqubun sözüynən,
Unutmaz yar-yarı, ay maral-maral.

## Dünyasan

*Yüz yaşadım, etibarın görmədim,*
*Pozulsun növrağın, yalan dünyasan.*
*Mərd deyilsən, namərdlərin pirisən,*
*Dostunu ağladıb, gülən dünyasan.*

*Gahdan ağlayırsan, gahdan gülürsən,*
*Gahdan saralırsan, gahdan solursan.*
*Gah qocalır, gah da cavan olursan,*
*Gah da boşalıban, dolan dünyasan.*

*İnayət eyləsən tifli-gədaya,*
*Ucalsa şöhrətə, yetişsə boya.*
*Bəlalı başını salıb qovğaya,*
*Axır intiqamın alan dünyasan.*

*Şair Bisavadın coşubdur səri,*
*Açaram sinəmdən qəmli dəftəri.*
*O mərd igidləri, şux gözəlləri,*
*Köçürüb yurdunda qalan dünyasan.*

## Yazım, yazmayım?!

*Qəlbim cuşa gəldi, səbrim tükəndi,*
*Bilmirəm bu haqda yazım-yazmayım?!*
*Ədəbaz alçağın oyunlarına,*
*Göz yumum nə vaxta, yazım, yazmayım?!*

*Turşudur qaşını, yumur gözünü,*
*Nə danışır, fəqət bilmir sözünü.*
*Elə bil alıbdır tacir qızını,*
*Durur univermaqda, yazım, yazmayım?!*

*Bilmirəm koxadır, yoxsa ki, katda,*
*Kinli qəzəbindən qorxuram hətta.*
*Beləsi Tuğda var, nə Zurnabadda,*
*İranda, İraqda yazım, yazmayım?!*

*Belə demir hökumətin qərarı,*
*Kim verib bəs ona bu ixtiyarı.*
*Elə bil İranda şahın sərdarı,*
*Oturub tac-taxtda, yazım, yazmayım?!*

*Bu bir nəsihətdir, yadda saxla sən,*
*İnsan olan sınar yekəliyindən.*
*Qınar bu əməllə bil ki, el, vətən,*
*Öyünmə gəl çox da yazım, yazmayım?!*

*Kimdi qarşındakı, gözlərini aç,*
*Bisavadı tanımırsan ay oğraş?*
*Mənə əda sanma duysan ehtiyac,*
*Apar sat qıraqda, yazım, yazmayım?!*

## Deyrələr

*Füqarələr bir məclisdə danışsa,*
*Kəs, danışma, yalan sözdü deyərlər,*
*Zalım durub hərzə-hədyan söyləsə,*
*Afərin, kəlamın düzdür, deyərlər.*

*Kimin bu dünyada yeyinsə baxtı,*
*Vurar kəhər ata qızıl iraxtı.*
*Tərəqqi təkəri geriyə axdı,*
*Geysə də atlası, bezdi deyərlər.*

*Qeys Məcnun oldu, Leyli divana,*
*Pərvanə şam üçün bəlkə də yana.*
*İpək qurdu bel bağlamaz cahana,*
*Özü öz qəbrini qazdı deyərlər.*

*Sənə nə lazımdı bu dövlət, bu var,*
*Saxla öz nəfsini olma günahkar.*
*Qonşu qonşusuyla eyləsə rəftar,*
*Qonşu qarısına qızdı deyərlər.*

*Yoxsul oldun bu dünyada müxtəsər,*
*Dost-qardaş qapından ayağın kəsər.*
*Uşaq sözə baxmaz, arvadsa küsər,*
*Bisavadın ağlı azdı deyərlər.*

